17 Noyabr Milli Dirçəliş Günüdür

45 (1195) 11-17 noyabr 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

İLHAM ƏLİYEV: "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ŞANLI TARİXİMİZİN PARLAQ SƏHİFƏSİDİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində səfərdə olublar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak ediblər.

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Belə bir qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimində iştirak ediblər.

Şuşa Radio-Televiziya Yayım Stansiyası 1966-cı ildə inşa edilib. Sovet dönəmində radio-televiziya proqramları bu stansiya vasitəsilə Qarabağa və Naxçıvan Muxtar Respublikasına ötürülürdü. Şuşa işğal olunana qədər teleradio proqramlarının bu bölgələrə ötürülməsinə ermənilər hər vasitə ilə mane olurdular. Belə ki, stansiya dəfələrlə ermənilər tərəfindən ağır artilleriya atəşinə məruz qaldığından buradakı avadanlıqlar zədələnmişdi, texniki binada ciddi dağıntılar baş vermişdi.

Vətən müharibəsində əldə olunmuş Qələbədən sonra Şuşa Radio-Televiziya Yayım Stansiyasında ötən il dekabrın 31-dən radio-televiziya yayımlarının təşkili müvəqqəti bərpa edilib. Belə ki, stansiyadan yayımlanan 11 televiziya proqramının Şuşa, Xankəndi şəhərlərində və Xocalı, Ağdam, Bərdə rayonlarında, eləcə də ətraf yaşayış məntəqələrində yayımı təmin olunub. Layihəyə əsasən tikiləcək 130 metrlik metal güllənin və texniki binanın inşası Azərbaycanın telekommunikasiya sisteminin inkişaf etdiyi ölkələrdən birinə çevrildiyinin daha bir sübutudur.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak ediblər.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlərlə bağlı məlumat verib. Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa olunur. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ötən bir il ərzində Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən qeyd olunan məscidlərdə qiymətləndirmə işləri aparılıb, bərpa layihəsi işlənilib. Hər üç məscidin bərpa işləri "Paşa Holding"in maliyyə dəstəyi ilə həyata keçirilir. Heydər Əliyev Fondu tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinin birinci mərhələsini artıq başa çatdırıb. Hazırda məsciddə ikinci mərhələ üzrə bərpa işləri aparılır.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olublar.

Bildirilib ki, işğal dövründə ermənilər Azərbaycanın bu ərazidə əsrlər boyu yaşayan böyük şəxsiyyətlərinin tarixi irsini məhv etməyə çalışıblar. Şuşadan Azərbaycan izinin silinməsi üçün tarixi-mədəni abidələri dağıdaraq milli dəyərlərimizə ciddi ziyan vurublar. Mehmandarovların da malikanəsi məhz bu çirkin niyyətlərin qurbanı olub. Mühüm mədəni-tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksində bərpa işlərini Heydər Əliyev Fondu aparır. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıblar. Qiymətləndirmə işlərinə uyğun olaraq ilkin layihə əsasında bərpa işlərinə başlanılıb.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə söhbət ediblər.

PASHA Bank

Azərbaycan Respublikasının Konstitusiya Günü münasibətilə təbrik edirik!

Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi təbrik edən qonaqlar qısa vaxtda burada belə genişmiqyaslı işlərin görülməsinin böyük təəssürat yaratdığını vurğulayıblar.

Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə, həmçinin Şuşada bir ildən az vaxt ərzində sosial və infrastruktur obyektlərinin tikildiyini, yenidən qurulduğunu və bu işlərin hazırda da davam etdirildiyini deyib. Dövlətimizin başçısı bildirib ki, əsas hədəf azad olunan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılmasıdır. Azərbaycan Prezidenti bərpa və yenidənqurma işlərinin tarixi və dini abidələri də əhatə etdiyini diqqətə çatdırıb.

Qonaqlar ermənilərin dağıtdıqları tarixi abidələri və törətdikləri vandalizm aktlarını öz gözləri ilə gördüklərini bildiriblər.

* * * * *

Bu gün ölkəmizin hər yerində qələbə ruhu hakimdir. Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşanın düşmən tapdağından azad edilməsi tarixi Qələbəmizin simvoludur. İşğaldan azad olunmuş ərazilərdə son bir ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri yenidən bu yerlərə həyat verir, ermənilərin ekoloji sistemə vurduqları ziyan aradan qaldırılır.

Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkiblər.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güler, Türkiyə Respublikasının Quru Qoşunları komandanı Musa Avsever, Hərbi Hava Qüvvələri komandanı Hasan Küçükakyuz və Hərbi Dəniz Qüvvələri komandanı Adnan Özbal daxildir.

Hulusi Akar Zəfər Günü münasibətilə, eyni zamanda, öz adından dövlətimizin başçısını təbrik edib.

Dövlətimizin başçısı Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstəyi bir daha yüksək qiymətləndirərək müharibədən sonrakı dövrdə əlaqələrimizin daha yüksək səviyyəyə qaldırıldığını vurğulayıb.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edib.

O, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib və deyib:

- Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir.

2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar.

Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu.

Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi. Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq.

Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik.

Digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı idi. Çox yaxşı başa düşürdük ki, əgər bizim silahımız da, sursatımız da olsa, iqtisadiyyatımız da güclü olsa, beynəlxalq müstəvidə də uğur qazansaq, əgər bizim vətəndaşlar torpaq uğrunda, Vətən uğrunda öz gücünü göstərməsələr, qalan amillərin heç bir əhəmiyyəti olmayacaq. Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun.

Hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il bax, burada, Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi. Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq.

Bunu biz əldə etmişik. Bütün beynəlxalq təzyiqlərə rəğmən, bütün hədə-qorxulara rəğmən, xalqımız yumruq kimi birləşdi, Ordunun arxasında dayandı və biz bu tarixi, şərəfli missiyanı yerinə yetirdik. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmamışıq. Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

Eşq olsun Azərbaycan Ordusuna, eşq olsun Azərbaycan xalqına. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Gələn il Qarabağın bərpası üçün 2,2 milyard manat vəsait ayrılacaq

"2022-ci ildə işğaldan azad olunmuş ərazilərin bərpası əsas prioritet olaraq qalmaqdadır. Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılan Zəfəri qeyd edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusunun bizə bəxş etdiyi bu Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə sürətli inkişaf və bərpa dövrü başlanıb". Bu sözləri "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Maliyyə naziri Samir Şərifov deyib.

Nazir qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin tarixi simalarının qaytarılması, mədəni tarixi abidələrin bərpası, elektrik, su və yol xətlərinin çəkilməsi ilə bağlı başlanılan işlər böyük sürətlə davam edir.

Prezident İlham Əliyevin tapşırığından irəli gələn bu ümdə vəzifələrin növbəti ildə də davam etdirilməsi üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulub .

Samir Şərifov bildirib ki, pandemiyadan sonra dünya iqtisadiyyatında bərpa prosesləri qeyri-bərabər baş verir. Bunun nəticəsində müəyyən logistika zənciri vaxtilə qırılıb. Onun bərpası gözlənilməndən ləng getməkdədir. Bu da nəticə etibarilə bir sıra əmtəənin istehlakçılara təqdim edilməsində problemlər yaradıb. Bu isə qiymətlərin artımına gətirib çıxarıb.

Nazir deyib ki, Azərbaycan iqtisadiyyatı da bu proseslərdən tam qorunmayıb. Buna görə də Prezident İlham Əliyev müvafiq Sərəncam imzalayıb. Bu təsirlərin yumşaldılması məqsədilə dövlətimizin başçısı tərəfindən xüsusi tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıqlar verilib. Gələn ildən müavinət, pensiya və təqaüdlərin artması, eyni zamanda, dünya miqyasında postpandemiya dövrünə təsadüf edən qiymət artımı ilə bağlıdır.

Sahibkarlara 62 milyon manat faiz subsidiyası verilib

Koronavirus (COVID-19) pandemiyasına görə Azərbaycanda bu il noyabrın 1-nə 243 mindən çox muzdlu işçiyə 250 milyon manat vəsait ödənilib.

Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında, gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsində bildirib.

Bundan başqa, onun sözlərinə görə, 28 minə yaxın fərdi və mikro sahibkara 113 milyon manatdan çox maliyyə dəstəyi göstərilib.

"Pandemiyanın iqtisadiyyata təsirlərinin yumşaldılması üzrə fəaliyyətlərdən biri də sahibkarlara yeni verilən bank kreditlərinin 60%-nə dövlət zəmanətinin olması, habelə onların banklar qarşısındakı borclarına görə faizlərin subsidiyalaşdırılmasıdır. Belə ki, bu ayın əvvəlinə bankların sahibkarlara yeni verdiyi 500 milyon manatlıq kreditlər çərçivəsində məbləği 399 milyon manat təşkil edən 1 900 müraciət üzrə 233 milyon manat dövlət zəmanəti verilib.

Eyni zamanda, faiz subsidiyası üzrə nəzərdə tutulan 1 milyard manatlıq kredit portfelinin 900 milyon manatlıq hissəsi üzrə 62 milyon manat faiz subsidiyasının verilməsi təsdiqlənib", – o qeyd edib.

"Fiskal dayanıqlılıq təkcə neft sahəsini əhatə etməməlidir"

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib.

V.Gülməmmədov bildirib ki, növbəti ilin dövlət büdcəsinin gəlirləri əvvəlki illərdən çox proqnozlaşdırılıb: "Potensiala yenidən baxılmasının zəruriliyi Hesablama Palatasının rəyində qeyd edilib. Vergi Məcəlləsinə ediləcək dəyişikliklər və digər dəyişiklikləri nəzərə alaraq, vergi və gömrük daxilolmalarında risklərin olmayacağı qənaətindəyik. Hesablama Palatası tərəfindən aparılan təhlillərdə işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində göstərilən xərclər dəstəklənib. 2022-ci ilin dövlət büdcə xərclərini xarakterizə edən növbəti meyil əməyin ödənişi bölməsinin ən böyük göstərici olaraq proqnozlaşdırılmasıdır".

Hesablama Palatasının sədri onu da bildirib ki, hazırda büdcə qanunvericiliyinin təkmilləşdirilməsinə ehtiyac var. O, deyib: **"Zərfə daxil olan sənədlərin bəzilərinin informativ xarakterdə olması makrofiskal kontekstdə təhlillərin həyata keçirilməsinə mane olur. Büdcə sistemi haqqında qanunun 12 və 15-ci maddələrinə dəyişiklik edilməsi ilə bağlı təkliflərimizi rəyə daxil etmişik".**

Azərbaycanda yaşa görə pensiya artırılır

"Növbəti ildə yaşa görə əmək pensiyasının 358 manatdan 375 manata çatmasını gözləyirik. Cari ilin 10 ayında isə biz orta pensiyanın məbləğini 331 manat qiymətləndiririk. Növbəti ildə isə bu məbləğin artaraq 345 manata çatmasını gözləyirik".

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev noyabrın 10-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

"Bu da birmənalı olaraq ölkədə həm minimal pensiyaların, həm də aztəminatlı ailələrin sosial rifahının dəstəklənməsi və orta pensiya məbləğinin artaraq, əhalinin layiqli həyat səviyyəsinin təmin olunması üçün verilən növbəti dəstək tədbiri olacaq", – nazir vurğulayıb.

ZƏFƏRƏ APARAN YOLLAR

Prezident İlham Əliyevin hərtərəfli inkişafa, balanslaşdırılmış xarici siyasətə əsaslanan strategiyasının gerçəkləşməsi nəticəsində son 18 ildə Azərbaycan iqtisadi müstəqilliyini tam təmin etmiş, maliyyə imkanlarını bir neçə dəfə artırmışdır. Əslində, bizi Zəfərə aparan yol bu illər ərzində əldə olunan iqtisadi inkişafdan güc almışdır. Bu zaman kəsiyində makroiqtisadi sabitliyə nail olan Azərbaycan Respublikası innovativ əsaslara söykənən iqtisadi quruculuq proseslərindən keçərək, qarşıya qoyulan bütün strateji hədəflərə çata bilmişdir. Təkcə bir faktı göstərmək kifayətdir ki, ölkədə bu dövr ərzində ÜDM-də 3,2 dəfəlik artım müşahidə edilmişdir.

Son 18 ildə ölkəmizə xarici və daxili mənbələrdən 274 milyard ABŞ dolları həcmində investisiya yönəldilmişdir. Həyata keçirilən iqtisadi modelin uğurla reallaşması nəticəsində respublikamızın valyuta ehtiyatları artan xətt üzrə inkişaf edərək, 53 mlrd. dolları üstələmişdir. Bu göstərici MDB məkanında birinci sırada olmaq deməkdir. Prezident İlham Əliyev

iqtisadi yüksəlişimizdən danışarkən demişdir: "Əgər bizim iqtisadiyyatımız kənar dövlətlərdən asılı olsaydı, biz uğurlu kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən prezident kimi ilk illərdən iqtisadi müstəqilliyimizə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir!"

İqtisadi müstəqilliyin və milli inkişafın təmin olunması ilə yanaşı, ordu quruculuğu strategiyasının uğurla icra olunması, müasir standartlar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, maddi-texniki təchizatının genişləndirilməsi bizi hər an qələbəyə yaxınlaşdırdı. O gün gəldi. Şanlı Azərbaycan Ordusunun müzəffər qələbəsi ilə bütünlükdə Cənubi Qafqaz regionu post-müharibə mərhələsinə daxil oldu. Böyük Qayıdışın ən yüksək səviyyədə və qısa müddətdə gerçəkləşməsi üçün ardıcıl və məqsədyönlü işlərə başlanıldı. Cəmi səkkiz ay ərzində Füzuli Beynəlxalq Hava Limanı tikilib istifadəyə verildi, digər irimiqyaslı infrastruktur tədbirlərinə başlanıldı. Bu gün bütün dünyanın gözü Azərbaycandadır. Qısa zaman kəsiyində bu qədər işlərin görülməsi doğma yurd yerlərinə olan sevginin təcəssümüdür. Bütün dünya ictimaiyyəti də bilməlidir ki, bu torpaqların əsl sahibiləri kimlərdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanından irəli gələn vəzifələrin icrası iqtisadi potensialdan səmərəli istifadə olunması prosesinə böyük təkan verəcəkdir. Yeni bölgüyə əsasən 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının olması tarixi-mənəvi və iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir. Həmin iqtisadi rayonların dirçəldilməsi və inkişaf etdirilməsi istiqamətində işlənib hazırlanan strateji xətt yaxın illərdə öz bəhrəsini verəcəkdir. Bu gün Azərbaycan iqtisadi sistemini rəqəmsal texnologiyalar əsasında quran ölkəyə çevrilməkdədir. Cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış "**Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər**" sənədində prioritetlərdən biri yaradıcı və innovativ cəmiyyət quruculuğudur. Bu, zamanın çağırışıdır. İnkişaf etmiş ölkələr rəqəmsal xidmətlər və elektron hökumət hesabına iqtisadi səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar. Odur ki, iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyalarla idarə olunması ölkəmizin qarşısında duran ən önəmli vəzifələrdən biridir.

Azərbaycanda rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində bir çox işlər görülmüş və bu sahədə ölkəmiz regional mərkəzə çevrilmişdir. Görülən tədbirlər idarəetmə və nəzarət mexanizminin təkmilləşdirilməsi sahəsində, biznes fəaliyyətində, dövlət və ictimai funksiyalar daşıyan fəaliyyətlərin yerinə yetirilməsində yeni keyfiyyət dəyişiklikləri yaratmışdır.

Əgər Azərbaycan iqtisadiyyatı güclü olmasaydı, şübhəsiz ki, yeni innovativ alıb gətirmək mümkün olmayacaqdı. Dünyanın aparıcı ölkələrinin, demək olar ki, hamısında ümumi daxili məhsulun 2,3 faizi elmi tədqiqatlara sərf olunur. Açığını demək lazımdır ki, Azərbaycanda bu faiz çox aşağıdır. Qarşıda duran ən ümdə vəzifələrdən biri də elmi tədqiqat işlərinə ayrılan vəsaitin həcminin bir neçə dəfə artırılmasıdır. Bizim ölkəmizdə bu işə ilk olaraq, əhaliyə effektiv xidmətlərin göstərilməsindən başlanılıb. "ASAN xidmət" bu məqsədlə yaradılıb. Sonrakı mərhələdə bu xidmətlərin virtual formada göstərilməsi nəzərdə tutulur. Bundan başqa, dövlət qurumları arasında olan münasibət və əlaqələrin virtual mühitə keçidi də təmin ediləcəkdir.

Prezident İlham Əliyev Azərbaycanda rəqəmsal transformasiyaların tətbiqi konsepsiyasının hazırlanması ilə bağlı xüsusi göstəriş verib. Həmin tapşırığa uyğun olaraq sənədin yaxın vaxtlarda təsdiqlənəcəyi gözlənilir. Bir vacib məsələni də vurğulamaq lazımdır ki, 2024-cü ilin sonuna qədər Azərbaycanda genişzolaqlı internetlə təmin edilməyən yaşayış məntəqəsi qalmayacaq. **Lakin nəzərə almaq lazımdır ki, bütün texnologiyalar insan amili ilə əlaqədardır. Bu mənada ali təhsil müəssisələrində elmi tədqiqat işlərinin yüksək standartlar səviyyəsində qurulması qarşıda duran əsas vəzifələrdəndir. Azərbaycan dövləti tarixi Zəfərin qazanılması üçün 30 il ərzində möhtəşəm işlər görüb. Ulu öndər Heydər Əliyevlə başlanan milli inkişaf yolu cənab Prezident İlham Əliyev tərəfindın yeni keyfiyyət çalarları ilə inkişaf etdirilərək, bugünkü səviyyəyə gəlib çatıb. Azərbaycan dayanıqlı və davamlı inkişaf yolu ilə inamla irəliləyir. Bu gün Azərbaycanın xarici borcu ÜDM-in 18,2 faizi həcmindədir.**

Bu, yaxşı göstərici hesab olunur. Çünki dünya üçün normativ göstərici 40 faizdir. Yuxarıda da deyildiyi kimi, ölkənin valyuta ehtiyatları 53 milyard dolları keçib. Bu faktlar respublikamızın maliyyə və iqtisadi təhlükəsizliyinin tam təmin olunmasından xəbər verir. 44 günlük Vətən müharibəsindən sonra bölgədə geosiyasi və geoiqtisadi vəziyyət dəyişib. Yeni reallıqlar yaranıb ki, bu, region ölkələrinin iqtisadi tərəqqisinə və yüksəlişinə xidmət edəcək.

Bütün proseslərin mərkəzində Azərbaycan dövləti dayanır.

Bu gün işğaldan azad edilmiş torpaqlarımızda həyat qaynayır, dünyanın heç bir yerində olmayan coşqu yaşanır. Son standartlar səviyyəsində yollar, tunellər, körpülər tikilir, elektrik stansiyaları qurulur. "Ağıllı kənd", Ağıllı şəhər", "Yaşıl enerji" layihələrinə start verilib. Doğma yurd yerləri uzun ayrılıqdan sonra vətən övladlarının nəvazişli əlləri ilə Vətənləşir, bütövləşir!

Zülfü İLYASOV,
"İqtisadiyyat" qəzetinin
xüsusi müxbiri

Gömrüyün büdcəyə ödənişləri 3,6 milyard manata çatıb

Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə oktyabr ayında 367 milyon manatdan çox vəsait köçürülüb.

Banker.az bu barədə komitənin açıqlamasına istinadən xəbər verir.

Beləliklə, 2021-ci ilin ilk 10 ayında 3 milyard 562.91 milyon manatlıq büdcəyə köçürmə baş tutub. Bununla da öncəki ilin eyni dövrünü 293.27 milyon manat (9%) üstələmiş olub.

"Zəyəm Texnologiyalar Parkının" ₼18 milyonluq səhmlərinə 69 investor maraq göstərdi

Bakı Fond Birjasında Zəyəm Texnologiyalar Parkının (ZTP) səhmlərinin yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.

Banker.az xəbər verir ki, 4-5 noyabr 2021-ci il tarixlərində Bakı Fond Birjasında Zəyəm Texnologiyalar Parkının (ZTP) AZ1001003453 dövlət qeydiyyat nömrəli, 18,000,000.00 manat həcmində, adi adlı sənədsiz səhmlərinin abunə yazılışı üzrə yerləşdirilməsi yekunlaşmışdır.

Abunə yazılışı zamanı anderrayterə 69 investor tərəfindən 71 sifariş təqdim edilmişdir.

Abunə yazılışı üzrə toplanmış sifarişlərin nominal qiymətlə ümumi məbləği 18,514,204.00 manat təşkil etmişdir. Səhmlərin nominal qiymətlə yerləşdirilmiş həcmi isə 18,000,000.00 manat təşkil etmişdir.

Yerləşdirmə üzrə baş anderrayter "Paşa Kapital İnvestisiya Şirkəti" QSC -dir.

Азербайджан вступает в новый этап развития – Микаил Джаббаров

Азербайджан вступает в новый этап развития, который охватит 2022-2030 годы. Об этом сказал министр экономики Азербайджана Микаил Джаббаров в ходе обсуждения в среду законопроекта «О государственном бюджете Азербайджана на 2022 год» на заседании комитета Милли Меджлиса (парламент) по экономической политике, промышленности и предпринимательству.

Министр отметил, что в условиях значительных послаблений карантинного режима и повышения экономического роста в динамике роста ВВП усиливаются положительные тенденции: «Перед нами стоят первостепенные задачи по обеспечению устойчивости экономического роста, дальнейшему укреплению финансовой устойчивости национальной экономики и восстановлению освобожденных территорий. С этой целью между соответствующими структурами были проведены плодотворные обсуждения».

Доходы госбюджета Азербайджана на 2022 г. превысят показатели прошлых лет

Прогнозируется, что доходы государственного бюджета Азербайджана на 2022 год превысят показатели прошлых лет.

Об этом сказал в среду председатель Счетной палаты Вугар Гюльмамедов в ходе обсуждения законопроекта «О государственном бюджете Азербайджана на 2022 год» на заседании комитета Милли Меджлиса (парламент) по экономической политике, промышленности и предпринимательству.

«Учитывая изменения, которые планируется внести в Налоговый кодекс, и другие изменения, считаем, что можно говорить об отсутствии рисков по налоговым и таможенным поступлениям», - сказал Гюльмамедов.

По его словам, оплата труда прогнозируется как один из самых больших показателей расходов госбюджета-2022.

Отметим, что доходы государственного бюджета Азербайджана в 2022 году, по официальным прогнозам, составят порядка 26,82 млрд манатов, увеличившись по сравнению с 2021 годом на 5,4%.

Расходы госбюджета, согласно документу, прогнозируются на уровне 29,89 млрд манатов. По сравнению с 2021 годом расходы государственного бюджета также вырастут - на 4,7%. Таким образом, в бюджете образуется дефицит в размере чуть более 3,06 млрд манатов - это на 1,7% меньше, чем в государственном бюджете на 2021 год.

В 2022 г. среднемесячная зарплата в Азербайджане прогнозируется в размере 807 манатов - министр

В 2022 году среднемесячная зарплата в Азербайджане прогнозируется в размере 807 манатов.

Об этом сказал в среду министр экономики Микаил Джаббаров в ходе обсуждения законопроекта «О государственном бюджете Азербайджана на 2022 год» на заседании комитета Милли Меджлиса (парламент) по экономической политике, промышленности и предпринимательству, сообщает Trend.

По его словам, реальные темпы роста среднемесячной заработной платы в будущем году прогнозируются на уровне 4,7 процента.

«Хочу заверить, что реализация новой стратегии приведет к новым изменениям в экономике. Следующие пять лет станут основным периодом для реинтеграции освобожденных от оккупации регионов в экономику Азербайджана», - сказал Джаббаров.

Азербайджан выделит 2,2 млрд. на восстановление Карабаха и Восточного Зангезура

Одним из основных приоритетов Азербайджана на 2022 год является восстановление освобожденных территорий, заявил министр финансов Самир Шарифов в ходе обсуждения законопроекта «О государственном бюджете Азербайджана на 2022 год» на заседании комитета Милли Меджлиса по экономической политике, промышленности и предпринимательству.

«...На освобожденных территориях начался период восстановления. Активными темпами продолжаются работы по возвращению исторического облика освобожденных территорий, реставрации культурных и исторических памятников, прокладке линий электропередач и водопровода. Процесс восстановления идет ускоренными темпами. На продолжение этих задач в следующем году по поручению президента будет выделено 2,2 млрд. манатов», - сказал Шарифов.



В МИРЕ

Европа снова вводит ограничения

На фоне резкого роста заболеваемости COVID-19 власти Австрии с понедельника вводят ограничения в отношении не привитых. Для доступа во многие общественные места, включая рестораны, гостиницы и парикмахерские, требуется сертификат о вакцинации или справка о перенесенном заболевании. Эта мера также распространяется на мероприятия с участием более 25 человек.

В Германии также число подтвержденных новых случаев заражения коронавирусом за минувшие сутки достигло максимум за все время пандемии. Врачи опасаются скорой перегрузки отделений реанимации.

В стране отныне действует правило допуска в общественные места только для переболевших или привитых

В большинстве стран Центральной и Восточной Европы уровень вакцинации населения ниже, чем средний показатель по ЕС. В Румынии, где на прошлой неделе был зарегистрирован самый высокий

показатель суточной смертности с начала пандемии, дети могут посещать занятия в тех школах, где прививку сделали более 60 процентов учителей.

Власти Хорватии приняли решение расширить сферу применения так называемых ковид-паспортов на всех государственных служащих с 15 ноября. Это также коснется граждан, пользующихся услугами различных учреждений. Все общественные мероприятия, кроме свадеб, должны завершаться к полуночи.

В Азербайджане вырастет размер пенсии по возрасту

На следующий год ожидается увеличение трудовой пенсии по возрасту с 358 до 375 манатов. Об этом заявил министр труда и социальной защиты населения Сахиль Бабаев на заседании комитета Милли Меджлиса по экономической политике, промышленности и предпринимательству в ходе обсуждения документов, входящих в пакет госбюджета на 2022 год.

«За 10 месяцев 2020 года мы рассчитали размер средней пенсии в 331 манат. На следующий год мы планируем увеличить эту сумму до 345 манатов. Это решение однозначно станет очередной мерой поддержки социального благосостояния азербайджанских пенсионеров», - заявил С.Бабаев.

Мировые цены на продовольствие выросли рекордно за год

Мировые цены на продовольствие достигли рекордно высокого за последние 10 лет уровня, сообщает АЗЕРТАДЖ со ссылкой на Продовольственную и сельскохозяйственную организацию (ФАО) ООН.

Согласно данным нового бюллетеня цен, с октября 2020 года основные продукты питания, главным образом зерновые и растительное масло, подорожали более чем на 30 процентов. Стоимость зерновых росла из-за не оправдавшего ожиданий урожая основных злаковых культур в главных странах экспортерах, включая Канаду, Россию и США.

А пальмовое масло дорожает в связи с низкими объемами производства в

Малайзии, которая столкнулась с нехваткой работников мигрантов, а также резким ростом спроса на такую продукцию на одном из крупнейших рынков – в Индии.

Поставки СПГ в Европу сократились По итогам трех кварталов 2021 года

суммарный объем поставок сжиженного природного газа (СПГ) на европейский рынок составил 344 миллиарда кубометров, передает Trend со ссылкой на Оксфордский институт энергетических исследований.

«В отчетный период добыча природного газа, его импорт по трубопроводам и импорт СПГ сократились по сравнению с показателем трех первых кварталов 2019 года. Европейский рынок был эффективно сбалансирован с точки зрения хранения, причем как более крупным отбором в первом квартале 2021 года, так и меньшей закачкой во втором и третьем кварталах.

По данным отчета, незначительное увеличение трубопроводного импорта из Норвегии (+0,8 миллиарда кубометров) и более существенный рост импорта из Северной Африки (+9,7 миллиарда кубометров) и Азербайджана (+5,3 миллиарда кубометров - в результате запуска Трансадриатического трубопровода в январе 2021 года) более чем компенсировали сокращение поставок голубого топлива из России (-25,6 миллиарда кубометров).

11-17 noyabr 2021-ci il

Qeyri-neft ixracı ilk 10 ayda 42 faiz artıb

"İxrac icmalı"nın noyabr nömrəsinə əsasən, 2021-ci ilin ilk 10 ayı ərzində Azərbaycanın ixracı 16,8 mlrd. ABŞ dolları, qeyri-neft sektoru üzrə 2,05 mlrd. ABŞ dolları təşkil edib.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən məlumat verilib.

Bildirilib ki, qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 607.2 mln. ABŞ dolları və ya 42 faiz artıb. 2021-ci ilin 10 ayı ərzində qeyri-neft ixracında yeyinti məhsulları 3,2 faiz artaraq 582,2 mln. ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində qeyri-neft ixracında qara metallar və onlardan hazırlanan məmulatlar 3,2 dəfə, mis və ondan hazırlanan məmulatlar 2,2 dəfə, pambıq 87,6 faiz, üzvi kimyəvi birləşmələr 40,6 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 59,2 faiz, alüminium və ondan hazırlanan məmulatlar 61,7 faiz, qiymətli metallar və ondan hazırlanan məmulatlar isə 4,3 faiz artıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə oktyabr ayı üzrə ixrac 2,2 mlrd. ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 50,4 faiz təşkil etməklə 244,6 mln. ABŞ dolları olub. 2021-ci ilin oktyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac 76,5 milyon ABŞ dolları təşkil edib. Qeyri-yeyinti məhsulları üzrə isə 2 dəfə artaraq 168 milyon ABŞ dolları təşkil edib.

"Azərişıq" Kəlbəcərdə gördüyü işləri yekunlaşdırmaq üzrədir

"Azərişıq" ASC-nin işğaldan azad edilən Kəlbəcər rayonunun elektrik enerjisi sistemini yenidən qurması ilə bağlı görüntülər yayılıb.

Görüntülərdə Kəlbəcərdəki yolların kənarında yeni dayaqların basdırıldığı, 10 kilovoltuq izolyasiyalı və mühafizə olunan kabellərin çəkildiyi göstərilir. Bunun üçün isə səhmdar cəmiyyətin əməkdaşları ərazidə sovet dövründən qalmış və istifadəyə yararsız dayaqları çıxarıb ərazidən uzaqlaşdırıblar. Qeyd edək ki, həmin xətlər yeni qurulan 110/35 Kv-luq Kəlbəcər yarımstansiyasından qidalanır.

Çətin keçilən dağlıq relyefə malik olması Kəlbəcərdə energetiklərin fəaliyyətini çətinləşdirib. Belə ki, rayonun Çopurlu kəndi ərazisində 35 kilovoltuq xəttin çəkilişi üçün yol infrastrukturunun olmaması energetikləri məcbur edir ki, ilk olaraq yol çəkilişini həyata keçirsinlər.

Məlumata görə, "Azərişıq" Kəlbəcərdəki işləri qarşıdakı həftələrdə tam yekunlaşdıracaq.

Respublikamızda arıçılıq təsərrüfatlarının inkişaf istiqamətləri

Müasir dövrdə ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifə sahələr arasında tarazlığı təmin etmək, əhalinin ərzaqla təminatını daim yaxşılaşdırmaq, sənaye sahələrinin kənd təsərrüfatı xammallarına olan tələbatının ödənilməsini və ixrac potensialının artırılaraq, inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılmasını təmin etməkdir.

Ümumilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə yenidən rəhbərliyə gələrək, başlatdığı demokratik dövlət quruculuğu və iqtisadi inkişaf siyasəti hal-hazırda respublikamızın Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Ölkə prezidentinin rəhbərliyi ilə qəbul edilən Strateji Yol Xəritələri, İqtisadi inkişaf Konsepsiyası, xeyli sayda dövlət proqramları və digər strateji xarakterli sənədlər, onların uğurla həyata keçirilməsi ölkəmizin hərtərəfli inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycanda qeyri-neft sektorunun əsasını təşkil edən aqrar sahənin inkişafının zəruri olduğu özünü daha çox büruzə verməkdədir. Dünya bazarında neftin ucuzlaşması və eyni zamanda manatın devalvasiyası nəticəsində idxal mallarının bahalaşması qeyri-neft sektorunu iqtisadiyyatın aparıcı qüvvəsinə çevirmək zərurəti yaradıb.

Bu gün qeyri-neft sektorunun aparıcı qüvvəsi sayılan aqrar sahənin yeni hədəflərinin əsası qoyulur, sosial və istehsal infrastrukturunun inkişafı, regional proqramların yerinə yetirilməsi, kənd ərazilərinin inkişafı, kənddə həyat tərzinin müasirləşdirilməsi, kənd iqtisadiyyatının inkişafı və alternativ iş mühitinin formalaşdırılması, kənd təsərrüfatının və kəndin çox funksiyalılığının gündəmə gətirilməsi ilə ölkənin daha da qüdrətlənməsinə şərait yaradılır.

Respublikamızda aqrar sektorda biznesin formalaşdığı müasir dövrdə istehsal sahələrinin müasir texnika və texnologiyalarla təchizatı, səmərəliliyin yüksəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək, mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək əsas vəzifələrdəndir. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorda infrastrukturun yenilənməsi, müasir tipli yeni müəssisələrin yaradılması əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına, yeni iş yerlərinin açılmasına şərait yarada bilər. Qeyd edilən tədbirlərin həyata keçirilməsi məqsədilə mühüm dövlət proqramları hazırlanaraq qəbul edilmişdir.

Kənd təsərrüfatında aparılan islahatların davamı olaraq ölkəmizdə 2016-cı il 06 dekabr tarixli fərmanla "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi" təsdiq edilib. Hazırlanmış bu Yol Xəritəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, ərzaq təhlükəsizliyi sahəsində koordinasiya, qiymətləndirilmənin aparılması proqramı, yeni və daha müasir layihələrin hazırlanması və həyata keçirilməsi, fövqəladə hallarda həyata keçiriləcək tədbirlərin müəyyən edilməsi və s. işlərin səmərəliliyinin təmin edilməsi məsələləri öz əksini tapmışdır.

Respublikamız müstəqillik əldə etdikdən sonra inzibati amirlik və sovet sistemindən sosial yönümlü sivil bazar iqtisadiyyatına keçid etməklə inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Artıq ölkəmiz keçid dövrünü, əsasən başa vurmuş dövlət olaraq, mili maraqlara cavab verən, ölkənin iqtisadi təhlükəsizliyini təmin edən prinsiplərə uyğun, keyfiyyətli məhsul istehsalı və xaricdən asılılığı azaltmaqla, malik olduğu insan kapitalı və zəngin təbii resurslardan səmərəli istifadə etməklə inkişaf etmiş ölkəyə çevrilmişdir.

Sosial-iqtisadi inkişaf nəticəsində Azərbaycanın əldə etdiyi uğurlu nəticələri təhlil edən akademik Z.Ə.Səmədzadə "Çin qlobal dünya iqtisadiyyatında" adlı fundamental əsərində ölkəmizin XXI əsrə bazar münasibətləri əsasında inkişaf edən müstəqil ölkə olaraq daxil olduğunu qeyd edir. Beynəlxalq əhəmiyyətli enerji layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsü kimi çıxış edən Azərbaycanın iqtisadi qüdrəti günbəgün artır, bu isə öz növbəsində maliyyə imkanlarının genişlənməsinə zəmin yaradır.

Müasir dövrdə ölkənin iqtisadiyyatında neft sektoru aparıcı rol oynasa da, aqrar sahə çox böyük həyati əhəmiyyətə malik olan sahə kimi qalmaqdadır. Bu, onunla əlaqədardır ki, aqrar sahə ölkədə əhalinin ərzaq məhsullarına, bir sıra sənaye sahələrinin xammala olan tələbatının ödənilməsində, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında və deməli, cəmiyyətin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayır. Ona görə də hər bir ölkə, xüsusilə də inkişaf etməkdə və keçid iqtisadiyyatında olan ölkələr özlərinin təbii iqlim potensialına uyğun gələn və ərzaq təhlükəsizliyini təmin edə bilən aqrar sahəyə malik olmağa çalışır.

Ölkəmizdə aqrar setorun tərkib hissələrindən biri olan arıçılıq ənənəvi məşğuliyyət növlərindən biridir. Bunun bariz nümunəsi kifayət sayda yaşayış məntəqələrimizin və yerlərin arı və onun məhsullarının adı ilə məşhur olmasıdır. Keçmiş tariximizdən gələn bu adların əksər hissəsi bu gün də qalmaqdadır. Tarix boyu insanlar tərəfindən arıçılığın inkişaf etdirilməsinin bir sıra məqsədləri olmuşdur. İnsanlar arıçılığı inkişaf etdirməklə özlərini müalicəvi qida məhsulu və qiymətli pəhriz sayılan balla, xalq təsərrüfatını mumla, tibb sahəsini bu sahə üçün xüsusi əhəmiyyəti olan arı zəhəri, arı südü və s. ilə təmin etməyə çalışmışlar. Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən arıçılıq məhsulları baxımından kənd təsərrüfatının davamlı inkişafına nail olunması həllini gözləyən problemlərdəndir.

Göstərilənlərlə əlaqəli olaraq mövcud potensialdan daha səmərli istifadə olunmaqla və kənd təsərrüfatının mütərəqqi strukturunun üstünlüklərindən istifadə etməklə yeni müxtəlif formalı kənd təsərrüfatı müəssisələrinin təşkili və idarə edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə təminatının daha da yaxşılaşdırılması yollarının və xüsusiyyətlərinin araşdırılması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi ölkəmizin aqrar elmi qarşısında duran ən mühüm vəzifələrən biridir.

Respublikamızda aparılan iqtisadi islahatlar dərinləşdikcə, aqrar sektorun bir çox sahələri öz üzərinə düşən tarixi-iqtisadi vəzifələrin həllində xeyli çətinliklərə məruz qalır, əsas funksiyalarını yerinə yetirə bilmirlər. Bu sahələrdən biri olan arıçılıq təsərrüfatları da son illərdə ölkəmizdə əlverişli torpaq-iqlim şəraitinin olmasına baxmayaraq, əhalinin əvəzsiz yeyinti məhsulu olan bala və digər arıçılıq məhsullarına olan tələbatını tam ödəmir. Odur ki, respublikamızda arıçılıq məhsullarının istehsalının təşkili və idarə edilməsinin iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinin tədqiqi obyektiv zərurətə çevrilmişdir.

Arıçılıq bal arılarının yetişdirilməsini, çoxaldılmasını, saxlanılmasını, onlardan entomofil kənd təsərrüfatı bitkilərinin tozlandırılmasında istifadə edilməsini, arıçılıq məhsullarının istehsalını və emalını əhatə edən kənd təsərrüfatı sahəsidir. Bu sahəni inkişaf etdirmək iqtisadi cəhətdən gəlirli olması ilə yanaşı, ətraf mühitin ekoloji durumunun yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Aparılan araşdırmalar göstərir ki, bu gün respublikamızda arıçılıq təsərrüfatlarının maddi bazası tamamilə köhnəlmiş, arıçılıqla məşğul olanların hətta ən xırda avadanlıqları və materialları çatışmır. Respublikamızda arıçılıq təsərrüfatlarına xidmət göstərən infrastrukturların yaradılması istiqamətində tədbirlər həyata keçirilsə də, hələ də çoxlu çatışmazlıqlar mövcuddur. Arıçılar istehsal etdikləri məhsulları satmaq üçün böyük çətinliklərlə qarşılaşırlar. Əhalinin keyfiyyətli Azərbaycan balına tələbatı olmasına baxmayaraq, balın alıcılara çatdırılması mexanizmi bu günün tələblərinə cavab vermir. **Bu baxımdan arıçılıq təsərrüfatlarının formalaşması və inkişaf etdirilməsi məsələlərinin elmi tədqiqi aktuallıq kəsb edir.**

Azərbaycanda arıçılığın tarixinə səyahət etməklə onun dərin köklərə və zəngin təcrübəyə malik olduğunun şahidi oluruq.

Azərbaycanda arıçılıq Sovet hakimiyyəti dövründə bəzi kolxoz və sovxozların tərkibində fəaliyyət göstərmiş, ilk olaraq xırda dağınıq arıçılıq təsərrüfatları yaradılmış, sonralar ixtisaslaşdırılmış iri arçılıq təsərrüfatlarına çevrilmişdir. 1919-cu ildə "Arıçılığın mühafizəsi haqqında" dekret qəbul edilmişdir. Sənədə görə, arıçı kəndlilər əvvəllər tutulan "arı pulu" vergisindən azad edilirdilər.

XX əsrin 50-90-cı illərində Azərbaycanda arıçılıq dövlətə və arıçılıqla məşğul olanlara xeyli gəlir gətirən, inkişaf etmiş sahəyə çevrilmişdir. Rəsmi məlumatlara görə, o dövrdə Azərbaycanda 10 mindən çox kənd sakini arıçılıqla məşğul olmuşdur. Demək olar, bütün kolxozlarda arıçılıq təsərrüfatları, 10 ixtisaslaşdırılmış arıçılıq sovxozu, Lənkəranda ittifaq əhəmiyyətli arıyetişdirmə sovxozu fəaliyyət göstərmişdir.

Azərbaycan balı istər ölkəmizdə, istərsə də xaricdə yüksək qiymətləndirilir. Azərbaycanın misilsiz müalicəvi bal sortları olan dağ may balı, sitrus meyvələrindən və cənubdakı dağ çəmənlərindən toplanmış Lənkəran balı bütün dünyada layiqincə qiymətləndirilmiş və qəbul olunmuşdur.

Ötən əsrin 70-80-ci illərində Şamaxı arıçılıq sovxozunun may balı (arıçı Mariya Samoylovanın arıxanası) Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində dəfələrlə nümayiş etdirilmiş və medallara layiq görülmüşdür.

Araşdırmalar göstərir ki, 1960-80-ci illərdə respublikamızda ixtisaslaşdırılmış arıçılıq sovxozlarının təşkili, arıçılığa mütəxəssislər tərəfindən əməli köməklik göstərilməsi xeyli yaxşılaşmışdır. Əvvəlcə mövcud xırda arıçılıq təsərrüfatları kolxoz və sovxozların nəzdində yaradılmış, sonradan isə inkişaf edərək, iri arıçılıq təsərrüfatlarına çevrilmişdir. Arıçılıq sovxozları da özlüyündə müəyyən istiqamətdə ixtisaslaşmışdır. Belə ki, Şəki və Qusar arıçılıq sovxozları damazlıq arıyetişdirmə istiqamətində, qalan sovxozlar isə bal istehsalı üzrə ixtisaslaşmışlar.

Azərbaycanın arıçılıq təsərrüfatı 1990-1999-cu illərdə 45 faiz azalmışdır. Bunun bir çox səbəbləri vardır. Arıxanaların əksəriyyəti erməni təcavüzü nəticəsində hərbi əməliyyatların aparıldığı ərazilərdə məhv edilmişdir. İslahatların həyata keçirilməsi ilə əlaqədar sovxoz və kolxozların ləğv edilməsi zamanı 10 arıçılıq sovxozunun və kolxozlara məxsus arıçılıq təsərrüfatlarının hamısı qeyri-peşəkar insanların əlinə keçmişdir. Səriştəsizlik üzündən arı ailələri baxımsız qalmış və tələf olmağa başlamışdır. Həmin dövrdə arıçılığa xidmət göstərən infrastruktur, o cümlədən baytarlıq xidməti də dağıldı. Yenicə fəaliyyətə başlayan arıçılar arı xəstəliklərini diaqnozlaşdıra və müalicə edə bilmirdilər. Arı dərmanlarının davamlı alınması pozulmuşdu.

(davamı gələn sayımızda)

Yusif Hümbətov, Azərbaycan Texnologiya Universiteti, iqtisad üzrə fəlsəfə doktoru, dosent

Gələn il əhalinin gəlirlərinin artaraq 63,3 milyard manata çatacağı proqnozlaşdırılır

İnflyasiya səviyyəsinin tənzimlənməsi əhalinin sosial rifah göstəricilərinə də müsbət təsir göstərəcək. Ölkədə vaksinasiya prosesinin sürətli şəkildə davam etməsi və pandemiya ilə əlaqədar sosial təcrid tədbirlərinin qismən yumşaldılması istehlak tələbinin artması üçün şərait yaradıb. İstehlakın bərpası əhalinin gəlirlərinin artımı ilə dəstəklənir.

Bu, "2022-ci il dövlət büdcəsi zərfi haqqında" qanun layihəsində əksini tapıb.

Proqnozlara əsasən, növbəti ildə əhalinin gəlirlərinin artaraq 63,3 milyard manata, xərclərinin isə 58,4 milyard manata qədər yüksəlməsi proqnozlaşdırılır.

Gələn il dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard manat nəzərdə tutulur

2022-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 63 milyon manat məbləğində nəzərdə tutulur.

Bu, "2022-ci il dövlət büdcəsi zərfi haqqında" qanun layihəsində əksini tapıb.

Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 3,5 faiz təşkil edəcək ki, bu da 2021-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 0,3 faiz-bənd azdır. Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar (114 milyon manat), daxili və xarici borclanma (1693 milyon manat), 2022-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı (1256 milyon manat) hesabına həyata keçiriləcək.

Dövlət büdcəsində biometrik pasportların hazırlanması üçün 48,3 milyon manat nəzərdə tutulub

Növbəti ilin dövlət büdcəsində yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların hazırlanması üçün 48,3 milyon manat, Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin saxlanılması xərcləri üçün 5,8 milyon manat, Ələt Azad İqtisadi Zonasında bütün lisenziyaların, icazələrin, vizaların və təsdiqlərin verilməsinə məsul olan Biznes Xidmətləri Mərkəzinin ("One-Stop Shop" Business Centre) fəaliyyətinin təmin edilməsi ilə bağlı xərclər üçün 4,7 milyon manat məbləğində vəsait proqnozlaşdırılıb.

Bu, "2022-ci il dövlət büdcəsi zərfi haqqında" qanun layihəsində əksini tapıb.

2022-ci ilin dövlət büdcəsindən dövlətin adından yaradılan publik hüquqi şəxslərə 63,9 milyon manat, dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər üçün 28,5 milyon manat, qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün 11,3 milyon manat məbləğində və digər iqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı üçün 140 milyon manat məbləğində vəsait nəzərdə tutulub.

"Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə işlər ümumilikdə 60 faiz tamamlanıb

Üçüncü rübün sonuna "Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsi üzrə işlər ümumilikdə 60 faiz tamamlanıb.

"BP Azerbaijan"dan bildirilib ki, hazırda layihənin icrası üzrə işlər ən yüksək həddədir və bu işlərə Bakı, Avropa və Birləşmiş Krallıqda 5500 nəfər insan cəlb olunub. Onların da əksəriyyəti Azərbaycan vətəndaşlarıdır.

Ümumilikdə, layihə üzrə mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri ACE-dən ilk hasilatı 2023-cü ildə əldə etmək qrafikinə uyğun davam edir.

Builki dövlət büdcəsində 1.5 milyard manat qalıq yaranacağı gözlənilir

"Bu ilin 9 ayında Azərbaycanda iqtisadi sahədə olduqca müsbət nəticələrə nail olunub. Ölkə iqtisadiyyatı koronavirus (COVID-19) pandemiyasının yaratdığı tənəzzüldən sonra sürətlə bərpa olunmaqdadır".

Bunu Maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsində bildirib.

"Yanvar-sentyabr aylarında ölkədə ümumi daxili məhsulun real artımı 4.8%, o cümlədən qeyri-neft sektoru üzrə artımı 6.2% təşkil edib. Dövlət büdcəsinin vergi və gömrük daxilolmaları proqnozda nəzərdə tutulandan müvafiq olaraq 1 milyard 67 milyon manat (20.2%) və 352 milyon manat (12.4%) artıq olub. Bu isə xərclərin proqnozdan az icra edilməsi şəraitində büdcədə 159 milyon manat qalığın yaranmasına səbəb olub. Halbuki, proqnoza görə 839 milyon manat büdcə kəsiri olmalı idi.

Bu ilin sonuna büdcə qalığının 1.5 milyard manat olacağı gözlənilir. Belə olan şəraitdə Dövlət Neft Fondundan (ARDNF) transfertin 850 milyon manat az həyata keçirilməsi, həmin qənaət olunmuş vəsaitin gələn ilə ötürülməsi məqsədəuyğun hesab edilib", – deyə o, qeyd edib.

Şuşa şəhəri optik telekommunikasiya xidmətləri ilə təmin edilib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aztelekom" MMC Şuşa şəhərində mövcud müəssisə və yaşayış binalarını optik telekommunikasiya xidmətləri ilə təmin edib.

Nazirlikdən bildirilib ki, artıq sözügedən şəhərdə ilk istehsalat müəssisəsi olan çörək zavodunda xidmətə qoşulma icra edilib. Hazırda Şuşa sakinləri və şəhərin qonaqları genişzolaqlı internet xidmətlərini minimum 30 mb/s sürətlə əldə edə bilirlər. Məlumat üçün bildirək ki, işğaldan azad edilmiş şəhərdə müasir telekommunikasiya infrastrukturu GPON (Qiqabit tutumlu optik şəbəkə) texnologiyası əsasında qurulub.

"Aztelekom"un müasir standartlarla inşa etdiyi 1000 nömrə tutumlu optik şəbəkə məlumatların yüksək sürətlə ötürülməsinə və sabit internetə zəmanət verir.

"Aztelekom" MMC Şuşa şəhərində bərpa və yenidənqurma işləri çərçivəsində dayanıqlı və fasiləsiz telekommunikasiya xidmətlərinin təminatı üçün zəruri tədbirləri davam etdirəcək. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ölkənin rəqəmsal transformasiya siyasətinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə bütün yeni nəsil telekommunikasiya texnologiyalarının tətbiqini mərhələli və planlı şəkildə həyata keçirəcək.

PAŞA Holding və Bravo marketlər şəbəkəsi tərəfindən əsgərlərə qida bağlamaları təqdim edilib

PAŞA Qrup şirkətləri korporativ sosial məsuliyyət yönümlü fəaliyyətlərinə davam edirlər. Belə ki, 8 Noyabr - Zəfər Günündə PAŞA Holding və Bravo marketlər şəbəkəsi hazırda işğaldan azad edilmiş ərazilərdə olan əsgər və zabitlərə qida bağlamaları təqdim edib. Sözügedən fəaliyyət çərçivəsində bağlamalar Ağcabədi, Ağdam, Goranboy, Qubadlı, Cəbrayıl, Xocavənd, Kəlbəcər və Laçın rayonları, eləcə də Şuşa şəhərinə göndərilib. Qeyd edək ki, ümumilikdə bağlamaların sayı 23 000 pay təşkil edib.

PAŞA Holding-in Baş İcraçı Direktoru Cəlal Qasımov vurğulayıb ki, fəaliyyət göstərdikləri ölkələrə dəstək PAŞA Qrup şirkətlərinin KSM strategiyasının əsas fokuslarındandır. "Həm işğaldan azad edilən ərazilərin bərpasına töhfə vermək, həm müharibə zamanı maddi-mənəvi zərər çəkən ailələrə dəstək göstərmək, həm də torpaqlarımızın azad edilməsində birbaşa rolu olan və hazırda bu torpaqların keşiyində duran əsgər və zabitlərə mənəvi dayaq olmaq bizim üçün prioritetdə olan məsələlərdir", - deyə C.Qasımov bildirib. Cəlal Qasımov, eyni zamanda, bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib və Azərbaycan Respublikasının Ali Baş Komandanı başda olmaqla, bütün əsgər və zabit heyətinə, eləcə də qələbədə payı olan hər bir vətəndaşa öz dərin təşəkkürünü bildirib.

AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ BUNDAN SONRA DA MÖHKƏMLƏNƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Vətən müharibəsində əldə etdiyimiz Qələbənin önəminə toxunularaq, bunun bütün türk dünyası tərəfindən böyük sevinc hissi ilə qarşılandığı bildirilib.

Müharibənin ilk günlərindən Türkiyə dövlətinin, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın və türkiyəli parlamentarilərin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi olaraq vurğulanıb.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

Qarabağın görkəmli simaları

Sadıqcan (1846-1902)

Musiqiçi, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıq Mirzə Əsəd oğlu (Sadıqcan) 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdur.

Şuşa kimi bir mühitdə böyüyən Sadığın hələ uşaq yaşlarından incəsənətə, musiqiyə sonsuz həvəsi olub. Atası oğlundakı gözəl səsi duyaraq, onu Xarrat Qulunun məktəbinə aparır. Şuşanın bu məşhur xanəndəsi yeniyetmənin səsini yoxlayaraq, mələhətli avazından xoşu gəlir və məktəbinə qəbul edir. Sadıqdan başqa, bu məktəbin məzunları Şuşanın ən məşhur muğam ifaçıları: Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Bülbülcan, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Keştazlı Həşim və Keçəçi oğlu Məhəmməd olmuşdur. Bu məktəb Sadığın musiqiçi kimi formalaşmasına böyük təsir göstərmişdir.

Xalq mahnılarını özünəməxsus şəkildə oxuyan Sadığın 18 yaşında səsi qəflətən batır. Amma musiqiyə, sənətə bağlılığı onu ruhdan salmır. O, bir müddət tütək, ney, sonra da kamança çalır. Bu alətləri gözəl dinləndirsə də, özünü ancaq tarda tapır. Müğənni Bülbülün yazdığına görə, Mirzə Sadığın tar müəllimi XIX əsrdə yaşamış məşhur tarzən Mirzə Muxtar Məmmədov olmuşdur. İri əlləri, uzun və güclü barmaqları olan Sadıq qısa müddət ərzində istedad və qabiliyyəti sayəsində bu sənətin sirlərinə yiyələnərək, hətta müəllimindən də yaxşı tar çala bilir.

XIX əsrin əvvəllərində Şuşa mədəniyyət mərkəzlərindən biri idi. Şəhərdə təşkil olunan teatr nümayişləri və musiqi məclislərində Qafqazdan gələn şairlər, dramaturqlar, məşhur musiqiçilər və rəssamlar iştirak edirdilər. Sadıqcanın tarzən kimi tanınmasında Şuşada keçirilən musiqi məclisləri böyük rol oynamışdır. Mir Möhsün Nəvvabın "Məclisi-fəramuşan" və "Məclisi-xanəndə", Xurşidbanu Natəvanın təşkil etdiyi məclislərdə müğənnilər və musiqiçilər öz sənətlərini nümayiş etdirir, musiqi nəzəriyyəsi problemləri ilə əlaqədar müzakirələr aparılır, şairlərin əsərləri səslənir və müsabiqələr təşkil olunurdu. Sadıq da məclislərdə iştirak etdiyindən onun adı qonşu ölkələrdə tanınırdı.

Sadıqcan şənliklərdə və musiqi məclislərində iştirak etməkdən başqa, Şuşa və Tiflisdə tamaşaların fasilələri zamanı konsert verirdi. Sadıqcan həm kamançada, həm də tarda o dövrün məşhur xanəndələrini müşayiət edərdi. Artıq onun sorağı Qarabağdan kənara çıxmışdı. Cənubi Qafqazda, Şərq dünyasında Sadıqcanı yaxşı tanıyırdılar. Onu tez-tez məclislərə, toylara, xeyir işlərə dəvət edərdilər. Sadıqcanın adı Cabbar Qaryağdıoğlu kimi xanəndə ilə yanaşı çəkilirdi. 1872-ci ilin martında Novruz bayramı münasibətilə onu İranın Rusiyadakı səfiri Sankt-Peterburqa dəvət etmişdi, orada o, məşhur xanəndə Səttarla çıxış edirdi.

XIX əsrin 90-cı illərində Şuşada Sadıqcanın rəhbərliyi altında o dövrün tanınmış müğənniləri və musiqiçilərindən ibarət olan ansambl yaradılmışdır. Ansamblın tərkibinə Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Dəli İsmayıl, Xanlıq Şükür, Bülbülcan, Keçəçioğlu Məhəmməd, Məşədi Zeynal Haqverdiyev və digərləri daxil idi. Ansamblın konsertləri Şuşa, Bakı, Gəncə, Aşqabad, Tehran, İstanbul, Dərbənd, Vladiqafqazın konsert zallarında, Xurşidbanu Natəvan, Mahmud ağa, Məşədi Mələk bəy Mansurovun musiqi yığıncaqlarında, Tiflisin "Mücdəhid" və İrəvanın "Xurra" bağlarında keçirilirdi.

Sadıqcan həm də pedaqoq kimi tanınırdı. Tarzənin tanınmış şagirdlərindən Qurban Pirimov, Məşədi Cəmil Əmirov, Məşədi Zeynal Haqverdiyev, Şirin Axundov, Məmmədi Canıbəyov, Həmid Malıbəyli və digərlərini qeyd etmək olar.

Sadıqcan tarı təkmilləşdirərək, bu alətdə virtuoz oyunların imkanlarını genişləndirmişdir.O, tara cingənə və kök simləri əlavə etmiş, simlərin sayını 5-dən 11-ə çatdırmışdır. O, həmçinin tarın pərdə tutma sistemini tamamilə dəyişdirmiş, onların sayını 28-dən 22-yə endirmişdir. Sadıqcan Azərbaycan muğamına əhəmiyyətli yeniliklər təqdim edərək, "Segah" və "Mirzə Hüseyn Segahı"nı təkmilləşdirmiş və "Mahur" muğamını yaxşılaşdırmışdır. Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah", "Çoban Bayatı" yaranması Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlıdır.

Sadıqcan 1902-ci ildə Şuşada 56 yaşında vəfat etmişdir.

Azercell-dən yeni “010” nömrələri – “Qaliblərin seçimi!”

Bu xüsusi buraxılışı lider mobil operator Zəfər bayramımıza həsr edir

İstifadəçilərin uzun müddət səbirsizliklə gözlədiyi yeni “010” prefiksli (şəbəkə kodlu) nömrələr “Azercell Telekom” tərəfindən Azərbaycanın mobil rabitə bazarına təqdim edilir.

Şirkətin rəqəmsal siyasətinə uyğun olaraq, onlayn platforma vasitəsilə rahatlıqla nömrə əldə etmək mümkün olacaq. Belə ki, ilk dəfə olaraq bu cür iri miqyasda nömrə sifarişini onlayn rejimdə gerçəkləşdirən www.azercellim.com saytı vasitəsilə müştəri bəyəndiyi “010” prefiksli nömrəni seçib dərhal rəsmiləşdirə bilər. Həmin sayt üzərindən nömrə üçün onlayn ödəniş tamamlandıqdan sonra abunəçinin qeyd etdiyi əlaqə nömrəsi və ya elektron ünvanına xüsusi sifariş kodu göndərilir. Həmin kodu 7 gün ərzində istənilən Azercell satış məntəqəsinə təqdim etməklə yeni nömrəni əldə etmək mümkündür.

Yeni nömrələrin təqdimatını Azercell şirkətinin prezidenti Zərinə Zeynalova belə şərh etdi: “Qaliblərin seçimi!” şüarı ilə ifadə olunan “010” seriyalı nömrələrimiz Vətən müharibəsində qalibiyyətimizin ilk ildönümünə ithaf olunur. İlkin onlayn satış kanalının Azərbaycanın mobil rabitə bazarında daha geniş təqdimatı abunəçilərimiz üçün Azercell servislərini daha əlçatan və rahat edir, eyni zamanda bizə müştəri xidmətlərimizin səviyyəsini artırmağa şərait yaradır”.

Yeni nömrənin aktivləşdirilmə şərtləri və tariflər haqqında daha ətraflı məlumatı Azercell-in rəsmi veb-səhifəsindən (www.azercell.com) əldə etmək olar.

Azercell komandası “Qaliblərin seçimi” - “010” nömrələri ilə sizə daim ən sevincli və xoş xəbərlər almağı arzu edir.

Qələbə bayramımız mübarək!

Azercell-dən Vətənin igid övladlarına hörmətlə!

Şanlı qələbəmizin ildönümündə lider operator qazilərimizə “Veteran tarifi”ni təqdim edir

Xalqımızın qəhrəmanlıq salnaməsi - Vətən müharibəsindəki böyük zəfərimiz Ali Baş Komandan və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Qarabağ uğrunda vuruşan, canından və sağlamlığından keçən əsgər və zabitlərin şücaəti hesabına gerçəkləşdi.

Azercell bu Zəfər Gününü xalqımıza yaşadan şanlı Azərbaycan ordusuna sonsuz hörmətinin təcəssümü kimi müharibə veteranı statusuna malik olan bütün vətəndaşlarımıza yeni “Veteran tarifi”ni təqdim edir. Qələbə günümüz münasibətilə dəyərli veteranlarımıza həm də qələbə tariximizin gün və ayını simvolik şəkildə əks etdirən “8-11” seriyası ilə başlayan yeni nömrələr də hədiyyə ediləcək.

Sim-Sim abunəçiləri üçün nəzərdə tutulan “Veteran tarifi”nə qoşulmaq istəyən abunəçi şəxsiyyət vəsiqəsi və Azərbaycan Respublikasının müvafiq dövlət qurumları tərəfindən təqdim edilən və veteran statusunu təsdiq edən rəsmi sənədlə Azercell Müştəri Xidmətlərinə və ya Azercell Ekspres ofislərindən birinə yaxınlaşa bilər. Qeyd edək ki, yeni tarif daxilində bütün şəbəkədaxili zənglər - 0.04 AZN; hər 1MB mobil internet – 0.03 AZN; SMS - 0.03 AZN təşkil edəcək.

Nəzərə çatdıraq ki, yeni tarif Böyük Vətən müharibəsi, Əfqanıstan müharibəsi, Birinci Qarabağ müharibəsi və İkinci Qarabağ müharibələrində iştirak edərək, veteran statusu alan bütün vətəndaşlarımıza şamil edilir. Tarif haqqında daha ətraflı məlumatı www.azercell.com saytı vasitəsilə əldə etmək olar.

“Azercell Telekom” veteranlarımıza bu yeni tarif və nömrələrlə hər zaman yalnız qələbə müjdələrini və xoş xəbərləri paylaşmağı arzulayır, hamını 8 noyabr, - **Zəfər Günü münasibətilə təbrik edir!**

ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA-nın müxbir üzvləri Şahbaz Muradov və Akif Musayev, professorlar: Nazim İmanov, , Şakir Əliyev, Allahyar Muradov və Tərbiz Əliyev AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

AMEA İqtisadiyyat İnstitutunun əməkdaşları: Fuad Qəmbərov, Rəna Sultanova, Mais Gülalıyev, Tofiq Hüseynov, Cəlil Quliyev, Tanrıverdi Paşa, Mahir Zeynalov, Kərim Piriyev, Leyla Allahverdiyeva və Rəsmiyyə Abdullayeva AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Rəsul Balayev AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və “İqtisadiyyat” qəzetinin kollektivi
AMEA-nın müxbir üzvü Əli Nuriyevə oğlu
MURADIN
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500